Qobustan: dövlət dəstəyi uğurların təməlidir

İndi burada evlər fasiləsiz su, sakinlər rahat yolla təmin olunub, körpələr isə müasir bağçalarda istədikləri kimi əylənə və öyrənə biləcəklər

Müstəqil Azərbaycanla demək olar ki, eyni vaxtda sərbəst fəaliyyət hüququ qazanan Qobustan son təşkil edilən rayonlarımızdandır. Vaxtilə kiçik bir qəsəbə və kənddən ibarət olan, sosial infrastruktur və abadlıq baxımından heç bir inkişafı olmayan 2 yaşayış məntəqəsi birləşdirilərək müasir Qobustan şəhəri yaradılıb. Qısa müddətdə görülən işlər yaxın gələcəkdə Qobustan şəhərinin respublikamızın ən abad, gözəl şəhərindən birinə çevriləcəyini deməyə əsas verir.

Qobustanın ayrıca rayon statuslu məkana çevrilməsi onun inkişafını şərtləndirib. Həmin ərazidən keçən və şəhərin küçələrini gəzən insan burada gedən davamlı inkişafın canlı şahidinə çevrilir. Bərbad küçələri, əsasən alçaqmərtəbəli və miskin görkəmli evləri ilə yaddaşlarda qalan bu yurd yeri hazırda onu görənləri təəccübləndirməkdədir. Hər dəfə bəzək üstə gələn bəzək, yaradılan səliqə-sahman, yeni tikilən idarə binaları, 2,3, hətta 4 mərtəbəli fərdi yaşayış evləri bu yerin əzəmətini daha da artırır. Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin külək enerji qurğuları ilə günəş panellərindən ibarət hibrid elektrik stansiyası bu məkanın gözəlliyinə fərqli rəng qatır. Aparılan tikinti-quruculuq işlərində isə dövlət dəstəyi xüsusi olaraq qeyd edilməlidir. Təsadüfi deyil ki, ölkə Prezidenti İlham Əliyev ötən dövr ərzində Qobustanı düz 4 dəfə ziyarət edib. Hər səfərdən sonra rayonla bağlı verilən sərəncamlar isə inkişafyönümlülüyü ilə Qobustanın cazibədarlığını davamlı şəkildə artırıb.

Biz də Qobustanda olarkən küçələri gəzib və buradakı real vəziyyətin şahidinə çevrildik. Havanın temperaturunun aşağı düşməsinə baxmayaraq Qobustanda həyat qaynayır. Bir tərəfdə yaşıllıqlar salınır, digər tərəfdə yollara qara örtük çəkilir, digər yandan da ikimərtəbli köhnə binaların dam örtüyü dəyişdirilir, divarları rənglənir. Bu qəbildən olan binaların pəncərələri də yenilənir və daha keyfiyyətliləri ilə dəyişdirilib. Şəhərin dağlıq hissəsindən mərkəzə gələn küçə və evlərin yağış suyundan qorunması üçün daxili imkanlar hesabına çəkilən kanallarda da işlər əsasən yekunlaşıb. Hazırda son tamamlama işləri aparılmaqdadır. Yeni salınmaqda olan yaşayış massivi də abadlaşdırma prosesindən kənarda qalmayıb. Burada da ara yollar asfaltlanıb. Yol kənarlarında isə abadlaşdırma işləri gedir.

Rayon icra hakimiyyətinin başçısı Adil Məmmədov deyir ki, son günlərini yaşadığımız 2017-ci il Qobustan üçün çox uğurlu olub. Xüsusilə ən əlamətdar hadisə Prezident İlham Əliyevin rayona səfəridir. Prezident bu ilin oktyabr ayının 2-də rayonda olaraq görülmüş işlərlə tanış olub. Şəhərdə inşa edilmiş 100 yerlik uşaq bağçasının, Təklə-Sündü-Xilmilli avtomobil yolunun, 4 zolağa genişləndirilmiş Bakı-Şamaxı yolunun Cəngi-Bədəlli hissəsinin açılışını edib, şəhər üçün həyati əhəmiyyət kəsb edən su layihəsinin başa çatdırılması ilə əlaqədar sukanal idarəsinin yeni inzibati binasında ictimaiyyət nümayəndələri ilə görüşüb.

Bu görüşdə Prezident rayon xəstəxanasının tikintisi ilə əlaqədar tövsiyələrini verərək işlərin sürətləndirilməsi zərurətini də nəzərə çatdırıb.

Fasiləsiz su verilməsi həyatı daha da canlandıracaq

Rayon icra hakimiyyətinin başçısı su layihəsi üzərində xüsusi dayanaraq dedi: "Son dövrlərdə ölkəmizdə sosial sahədə həyata keçirilən siyasətin tərkib hissəsi kimi əhalinin dayanıqlı və təmiz içməli su ilə təminatı, həmçinin kanalizasiya şəbəkələrinin yenilənməsi istiqamətində icra edilən layihələrin həcmi artır. Bu baxımdan "Qobustan şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi də mühüm əhəmiyyət daşıyır".

Qobustan şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması Azərbaycan hökuməti və Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin birgə maliyyələşdirdiyi "Kiçik şəhərlərdə su təchizatı və kanalizasiya layihəsi" çərçivəsində həyata keçirilib. Layihə 2030-cu ilə qədər perspektiv inkişaf nəzərə alınmaqla Qobustan şəhərində 11 min 700 nəfərin içməli su təchizatının və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıb. Layihə çərçivəsində rayonun Təsi, Bədəlli, Sədəfli, Dərəkənd, Cəmcəmli, Ərəbqədim və Göydərə kəndlərinə suyun verilməsi təmin edilib. İcrasına 2015-ci ildə başlanan layihə çərçivəsində rayonun Təsi kəndinin yaxınlığında ümumi məhsuldarlığı saniyədə 87 litr olan 6 subartezian quyusu qazılıb, Daşarası və Nərimankənd kəndlərinin ərazisində 2 su anbarı inşa edilib. Eyni zamanda, 14,4 kilometr uzunluğunda magistral kəmər çəkilib, mürəkkəb relyef

şəraiti nəzərə alınmaqla suyun şəhərə çatdırılması üçün üçpilləli nasos sistemi quraşdırılıb. Əhaliyə verilən içməli suyun keyfiyyət göstəricilərinin uzunmüddətli dövr üçün standartlara uyğunluğunu təmin etmək məqsədilə su mənbəyində məhsuldarlığı sutkada 3800 kubmetr olan əks-osmos tipli təmizləyici qurğunun inşası yekunlaşmaq üzrədir.

Layihə çərçivəsində Qobustan şəhərində 68 kilometrlik içməli su şəbəkəsi yaradılıb, 1900 ünvana birləşmə verilib, bütün abunəçilər sayğacla təmin edilib. Artıq bütün şəhər əhalisi yeni şəbəkə vasitəsilə keyfiyyətli və dayanıqlı su ilə təmin olunur. Layihəyə uyğun olaraq Qobustan şəhərində ilk dəfə kanalizasiya şəbəkəsi yaradılıb, 42 kilometr uzunluğunda kanalizasiya xəttinin və 1160 baxış quyusunun inşası yekunlaşıb və hər bir evə birləşdirilib. Şəhərdə yaranan tullantı sularının toplanıb təmizləyici qurğuya ötürülməsi üçün 7 kilometrlik kanalizasiya kollektoru tikilib. Tullantı sularının zərərsizləşdirilməsi üçün məhsuldarlığı sutkada 2500 kubmetr olan təmizləyici qurğunun inşası üzrə keçirilən tender prosedurları son mərhələdədir və qarşıdakı aylarda tikinti-quraşdırma işlərinə başlanılacaq.

Layihə çərçivəsində Qobustan Sukanal İdarəsi üçün yeni inzibati bina da inşa edilib. Burada işçi otaqları, informasiya-texnologiyaları otağı, iclas zalı yaradılıb. Bir sözlə, müştərilərə yüksək səviyyədə xidmət göstərmək üçün nə lazımdırsa edilib. İnzibati binanın həyətində abadlıq və yaşıllaşdırma işləri aparılıb.

Yeni layihənin icrasına qədər Qobustan şəhərində 1950-ci illərdə yaradılmış su təchizatı sistemlərindən istifadə olunub. Şəhərə içməli su Xaltava və Təsi kəndləri ərazisində yerləşən subartezian quyularından verilib. Əvvəllər mövcud olmuş 42 kilometrlik su şəbəkəsi şəhəri tam əhatə etmir və istismar tələblərinə cavab

vermirdi. "Azərsu" ASC 8500 nəfər əhalisi olan Qobustan şəhərinin təqribən 20 faizinə xidmət göstərə bilirdi. İçməli su həftənin 3 günü olmaqla cəmi 1-2 saatlıq qrafiklə verilirdi. Əhalinin qalan hissəsi isə tələbatını fərdi qaydada ödəyirdi. Qobustan şəhərində kanalizasiya sistemi isə yeni layihə icra edilənədək ümumiyyətlə mövcud olmayıb.

Əhalinin içməli su təminatı istiqamətində işlər davam etdirilir. Artıq şəhərdə hər bir evdə 24 saat içməli su təminatı var ki, bu da çox böyük nəticədir.

Vaxtilə demək olar ki, heç bir kənddə içməli su şəbəkəsi olmadığı halda, hazırda rayon sakinlərinin 35 faizindən çoxu evlərində birbaşa içməli sudan istifadə edirlər. Növbəti illərdə Ərəbqədim, Cəmcəmli və Göydərə kəndlərində şəbəkənin qurulmasına diqqət yetiriləcək.

Yol abad olanda...

Abad yol hər bir məkan üçün vacibdir. O cümlədən də kəndlərinin xeyli hissəsi dağlıq hissədə yerləşən Qobustan üçün. Bu baxımdan Prezident İlham Əliyevin açılışını etdiyi Təklə-Sündü-Xilmilli avtomobil yolu xüsusilə qeyd edilməlidir. Bu yol 15 min nəfərin yaşadığı 6 kəndi birləşdirir. Ümumi uzunluğu 17,2 kilometr olan yolun eni 6 metrdir. Dördüncü dərəcəyə aid Təklə-Sündü-Xilmilli avtomobil yolu 2 hərəkət zolaqlıdır.

Layihə çərçivəsində müxtəlif diametrli 23 suötürücü boru tikilib, 9 avtobus dayanacağı quraşdırılıb. Bu yolun əsaslı yenidən qurulması yol boyu yerləşən yaşayış məntəqələrinin sakinlərinin rahat gediş-gəlişini təmin edəcək, nəqliyyatın hərəkətinin təhlükəsizliyində mühüm rol oynayacaq. Bundan başqa, bu layihə eyni zamanda, həmin yaşayış məntəqələrinin sosial vəziyyəti ilə yanaşı, iqtisadi inkişafına da müsbət təsir edəcək. Belə ki, kənd təsərrüfatı işçiləri məhsullarını daha tez və rahat şəkildə alıcılara çatdıra biləcəklər.

Bu yol 2017-ci ildə ölkəmizdə həyata keçirilən "40 yol" layihəsindən biridir. Prezident İlham Əliyevin tövsiyə və tapşırıqlarına əsasən bu il reallaşdırılan "40 yol" layihəsi nəticəsində ölkə üzrə 100 minlərlə sakin müasir səviyyədə inşa edilən yollardan istifadə edərək rahat şəkildə mənzil başına çatacaq. Ümumilikdə, regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarına uyğun olaraq son illərdə respublikamızda yol infrastrukturunun inkişafı istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər çərçivəsində çox sayda kənd yolları yenidən qurularaq müasir səviyyəyə çatdırılıb.

Abadlığa 3 milyon manat ayrılıb

Fikirlərini davam etdirən A.Məmmədov deyir:

- Cənab Prezidentin rayona son səfərindən sonra imzaladığı sərəncama əsasən, Qobustan şəhərində abadlıq-quruculuq işlərinin davam etdirilməsi üçün Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Qobustan Rayon İcra Hakimiyyətinə 3 milyon manat ayrılıb.

Rayonda tikinti-quruculuq işləri uğurla davam edir. Qobustan şəhərinin kanalizasiya və su şəbəkəsinin qurulması nəticəsində bütün küçələr yararsız hala düşmüşdü. Aparılan məqsədyönlü işlər, gərgin əmək nəticəsində artıq küçələrdə səliqə-sahman yaradılıb və yaşıllıqlar bərpa edilib.

Yaşıllıqların genişləndirilməsi ilə bağlı rayonda müvafiq tədbirlər görülür. İlin əvvəlindən Qobustan şəhərində 1300-dən artıq müxtəlif növ ağac, 1600-dən artıq qızılgül kolu əkilib.

Heydər Əliyev prospektində bütün sahələr abadlaşdırılıb. Eyni zamanda Bakı-Şamaxı yolunun Qobustan şəhəri daxilindən keçən hissəsində yolun sağ tərəfindəki sahələrdə abadlıq işləri aparılıb və əraziyə 200-dən artıq müxtəlif ağaclar əkilib.

Qobustan şəhərində yeni inşa edilmiş uşaq bağçasının həyətində 30-dan artıq ağac və 400-dən artıq qızılgül kolu əkilib və yaşıllıq zolaqları salınıb. Cəngi kəndində salınan parkda 3000-dək nar, zeytun və qızılgül kolları əkilib və suvarma sistemi qurulub.

Rayonun Təklə Mirzəbaba və Cəyirli kəndlərində yol kənarlarında 100-dək müxtəlif növ ağaclar əkilib. Bu ənənənin bütün kəndlərdə də davam etdirilməsi nəzərdə tutulur.

Qobustan şəhərində şəhər 3 saylı tam orta məktəb üçün 624 yerlik məktəb binasının, Sədəfli və Təsi kəndlərinin hər birində isə 56 yerlik modul tipli məktəblərin tikinti-quraşdırma işləri başa çatdırılmışdır.

Rayonun Cəngi kəndində parkın tikintisi davam edir. Ümumiyyətlə, rayonda kəndlər də sürətlə inkişaf edir.

Yerli gəlirlər artır

İlin əvvəlindən bəri rayonun yerli gəlirləri üzrə mədaxil planı 104,8 faiz yerinə yetirilib. Fiziki şəxslərin əməkhaqlarından gəlir vergisi 110,4 faiz icra edilib. Hüquqi şəxslərin mənfəət, hüquqi şəxslərin torpaq, hüquqi şəxslərdən əmlak vergiləri və dövlət rüsumu üzrə proqnoz göstəricisi artıqlaması ilə yerinə yetirilib. 2017-ci ilin birinci, ikinci və üçüncü rübündə planlaşdırılmadığı halda, 51,5 min manat aksiz vergisi daxil olub. Bununla yanaşı, əlavə dəyər vergisi planı 57,2 faiz, sadələşmiş vergi 77,1 faiz, torpaq icarə haqqı 57,2 faiz, sair daxilolmalar isə 21,8 faiz icra edilib. Əsas məqsəd isə bütün tədiyə növləri üzrə planı yerinə yetirməklə daha çox yerli gəlirlərlə təminata nail olmaqdır.

Keyfiyyətli işıq, fasiləsiz qaz verilməsi rahatlığa təminat yaradır

İlin əvvəlindən əhalinin elektrik enerjisi, təbii qaz təminatının yaxşılaşdırılması istiqamətində də bir sıra mühüm işlər görülüb.

35 kilovoltluq hava xətlərində 13 ədəd metal dayaq və 15 ədəd izolyator, 10 kilovoltluq hava xətlərində isə 143 ədəd metal, 61 ədəd ağac dayaq,12780 metr naqil və 346 ədəd izolyator istifadə edilməklə təmir işləri aparılıb.

Qobustan şəhərində və Poladlı kəndində 300 ədəd SİP dayaq quraşdırılıb. 7355 metr kabel çəkilib və ümumilikdə 250-dən artıq abonentin elektrik enerjisi ilə təminatı yaxşılaşdırılıb. Xüsusilə qeyd etmək lazımdır ki, on illərdir hər an insanlar üçün təhlükəli olan 9 çoxmənzilli yaşayış binasında elektrik xətləri evlərdən kənara çıxarılaraq SİP-ləşdirilib.

Qaz təsərrüfatında da xeyli iş icra olunub. Bunlarla yanaşı, hələ də şəhərin mərkəzində və kəndlərdə köhnə, korroziyaya uğramış qaz xətləri vardır ki, bu xətlər də dəyişdirilməlidir. Əhalinin 100 faiz təbii qazla təminatı üçün Şıxzahırlı, Təsi, Sədəfli, Cəngi, Qaracüzlü, Ceyrankeçməz, Nardaran və İlanlı kəndlərində də işlər görülməlidir. Növbəti illərdə bu məsələnin də öz müsbət həllini tapacağı gözlənilir.

İnvestisiya qoyuluşları artır

Bu ilin əvvəlindən indiyədək rayona 6 milyon manatdan çox özəl investisiya qoyulub. Fermerlər tərəfindən rayona 10-dan artıq müxtəlif kənd təsərrüfatı texnikaları gətirilib və 8 taxılsaxlama anbarı inşa edilib. Rayonun Xilmilli kəndində 2 sahibkar tərəfindən 10 hektar qoz bağı salınmışdır. Bu dövrdə rayonda 1 restoran, 2 ticarət mərkəzinin tikintisinə başlanılmışdır. Yerli sahibkarlar tərəfindən cari dövrdə bağça tikintisi, park və yaşıllıqların salınması, yol və içməli su çəkilişi istiqamətində bir sıra layihələr həyata keçirilib. Qobustanda rayon iqtisadiyyatına sahibkarların cəlb olunması xüsusi diqqətdədir. Hər bir sahibkara fəaliyyətləri üçün normal iş şəraiti yaradılır.

Bildiyimiz kimi, Qobustanda iqtisadiyyatın əsasını aqrar sahə təşkil edir. Taxılçılıq isə başlıca istiqamətlərdəndir. Bu il rayonda 53 min 280 ton taxıl istehsal edilib ki, bundan da 33 min 914 tonunu buğda, 19 min 366 tonunu arpa təşkil edib. Buğda sahəsi üzrə məhsuldarlıq 21,4 sentner, arpa üzrə 20,8 sentner olub.

Artıq rayonda növbəti ilin məhsulu üçün səpin işləri yekunlaşıb. Məqsəd gələn il daha çox məhsuldarlığa nail olmaqdır.

Rayonda əkinlərin suvarılması məqsədilə bir sıra tədbirlər nəzərdə tutulur. Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən, ayrılmış vəsait hesabına Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti tərəfindən Xilmilli və Təklə Mirzəbaba kəndlərinin hər birində subartezian quyusu qazılıb və yaxın vaxtlarda istifadəyə veriləcəkdir. Ərəbşalbaş və Bədəlli kəndlərinin hər birində 1 ədəd subartezian quyusunun qazılması nəzərdə tutulur.

Rayonun Qaracüzlü kəndi ərazisində 1000 hektar sahədə aqropark yaradılması istiqamətində işlər davam etdirilir. Təyinat dəyişikliyi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinə göndərilən sənədlərə bu günlərdə müsbət rəy verilib. 600 hektardan artıq sahədə şum çıxarılıb. Aqroparka gedən 20 kilometr yolun 7 kilometrlik hissəsinə daş örtük çəkilib və 6 kilometrlik hissəsinə qara örtük vurulub.

Rayon idmançıları yüksək nəticələr qazanıblar

2017-ci il ərzində rayonun idman sahəsində də bir sıra uğurlar qazanılıb. Belə ki, rayon idmançıları 3 beynəlxalq, 16 respublika, 22 zona yarışında iştirak ediblər. Bu yarışlara qatılmış 500 idmançı Qobustanı təmsil etməklə ümumilikdə keçirilən yarışlarda 53-ü qızıl olmaqla, 141 dəst medal qazanıblar.

İdmanın cüdo bölməsinin rayonda yeni açılmasına baxmayaraq qısa müddətdə bu sahədə də bir sıra nailiyyətlərə imza atılıb. Bu ilin avqust ayında Türkiyədə 15 ölkə idmançıları arasında keçirilmiş turnirdə rayon təmsilçiləri Babarəhim Mirzəyev birinci, Niyyət Yaqubov, Səyyad Alıyev və Samir Qayıbov 3-cü yerə layiq görülüblər.

Görünən odur ki, Qobustan nə qədər gənc və ətraf rayonlarla müqayisədə az təcrübəyə malik olsa belə, qarşıya qoyduğu hədəfləri böyükdür. Məqsəd ən yaxın zamanda bu məkanı respublikamızın ən qabaqcıl, ən cəlbedici yaşayış məntəqələrindən birinə çevirməkdir. Bu arzunun gerçəkliyə çevriləcəyi isə şübhə yaratmır. Çünki niyyət təmiz, əməl düz olanda məqsəd də əlçatan olur, uğur da...

Əli SƏLİMOV,
"Azərbaycan"